# Heydər ƏLİYEV: Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi var!

## Beynəlxalq Müəllimlər Günü qeyd olunub

***Rayonumuzun təhsil ocaqlarında və mədəni-maarif müəssisələrində 5 oktyabr Beynəlxalq Müəllimlər Gününə həsr olunmuş silsilə tədbirlər keçirilib. Tədbirlərdə cəmiyyətdə hər bir fərdin inkişafında fədakar müəllim əməyinin əvəzsiz rolu olduğu xüsusi diqqətə çatdırılıb.***

Oktyabrın 4-də Qəbələdə Beynəlxalq Müəllimlər Günü münasibətilə tədbir keçirilib.

Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüb, ulu öndərin əziz xatirəsinə ehtiramlarını bildiriblər.

Zarağan kənd 2 nömrəli tam orta məktəbində davam edən tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra təhsil işçilərini Beynəlxalq Müəllimlər Günü münasibətilə təbrik edən təhsil şöbəsinin müdiri Arifə Bayramova ölkəmizdə müəllim əməyinə verilən yüksək qiymətdən, təhsil işçilərinin ötən dərs ilində əldə etdikləri nailiyyətlərdən, müəllimlərimizin rayonun ictimai-siyasi və mədəni həyatında fəal iştirakından söz açıb və qazanılan uğurlarda təhsil işçilərinin də



əhəmiyyətli rolu olduğunu diqqətə çatdırıb.

Təhsil işçilərinin çətin əməyinin hər cür alqışa və mükafata layiq olduğunu qeyd edən natiq, müəllimlik peşəsini ən şərəfli və vacib peşə adlandırıb.

Arifə Bayramova müəllim adının bütün zamanlarda uca və müqəddəs sayıldığını bildirib və bütün müəllimləri bu adın şərəfini daima yüksəltməyə, ölkəmizin inkişafı naminə hazırlıqlı şagirdlər yetişdirməyə səsləyib.

Tədbirdə çıxış edən Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova müəllimləri peşə bayramları münasibətilə təbrik edib.

Ölkəmizdə son illər milli təhsil sisteminin inkişafında həyata keçirilən islahatlardan danışan RİH başçısının müavini çıxışında Prezident İlham Əliyevin və Birinci vitse-prezident, Heyər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva tərəfindən ölkəmizin digər bölgələri ilə yanaşı, Qəbələ təhsilinə də göstərilən yüksək diqqət və qayğıdan bəhs edib.

Bildirilib ki, regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilən dövlət proqramları, Heydər Əliyev Fondunun “Yeniləşən Azərbaycana yeni məktəb” proqramı və digər irimiqyaslı layihələr qarşıya qoyulan vəzifələrin icrasına, tədris müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsinə yönəldilib.




Sonda təhsilin inkişafındakı xidmətlərinə görə bir qrup təhsil işçilərinə Fəxri fərmanlar və xatirə hədiyyələri verilib.

Tədbir Zarağan kənd 2 nömrəli tam orta məktəb şagirdlərinin hazırladıqları bədii proqramla davam etdirilib.

**Səhrab Umuyev (foto).**
**“Qəbələ”**

## Məzunlarımız yüksək nəticələr göstərirlər

Ölkənin ayrı-ayrı bölgələrini təmsil edən abituriyentlərin imtahan fənləri üzrə cavablarının təhlili göstərir ki, ən yüksək nəticə əsasən kənd rayonlarının payına düşür. Məlumat 2018/2019-cu tədris ili üçün Azərbaycan Respublikasının ali və orta ixtisas təhsil müəssisələrinə tələbə qəbulu və ümumtəhsil məktəbləri üzrə buraxılış imtahanlarının nəticələri ilə bağlı DİM-in elmi-statistik təhlilində yer alıb.

Hesabatda bildirilir ki, müəyyən bölgələrdə ayrı-ayrı fənlər üzrə qəbul imtahanlarındakı yüksək göstəricilər ənənə halını alıb. Məsələn, Azərbaycan bölməsi üzrə ana dili fənnindən və coğrafiyadan Qəbələ rayonu bütün illərdə ən yüksək göstəricili bölgələr sırasındadır. Şübhəsiz, bu göstəricilər rayonumuzun təhsil müəssisələrinin səmərəli fəaliyyətinin nəticəsidir.

Qeyd olunur ki, bu təcrübəni respublika miqyasında yaymaq müvafiq elmi-metodik mərkəzlərin mütəxəssislərin ümdə vəzifələrindən biri olmalıdır. Bundan bütövlükdə respublikanın təhsil sistemi qazanar.

**“Qəbələ”**

## Müəllimlərin peşə bayramına həsr olunmuş tədbir

Bu günlərdə Heydər Əliyev Mərkəzində 5 oktyabr - Beynəlxalq Müəllimlər Günü münasibətilə tədbir keçirilmişdir.

Tədbiri mərkəzin direktoru Kəmalə Qasımova açaraq bildirmişdir ki, həyatını cəmiyyətin işıqlı gələcəyinə həsr edən müqəddəs peşə sahiblərinə–müəllimlərə hörmət əlaməti olaraq UNESCO 1966-cı ildən 5 oktyabr tarixinin Beynəlxalq Müəllimlər Günü kimi qeyd olunmasına qərar vermişdir.

Qeyd olunub ki, ölkəmizdə müəllimlər günü 1993-cü ildən keçirilir.

“Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi var. Mən dünyada müəllimdən şərəfli ad tanımıram” deyən ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün illərdə müəllim əməyini yüksək qiymətləndirib, onlara böyük hörmətlə yanaşıb, təhsil işçilərinin maddi vəziyyətinin, rifah halının yaxşılaşdırılmasının qayğısına qalıb.

Vurğulanıb ki, ölkəmizdə son illərdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən kompleks tədbirlər, Prezident İlham Əliyevin bu amili dövlət siyasətinin mühüm prinsipləri sırasına daxil etməsi, təhsil işçilərinə hərtərəfli qayğı dövlətin gələcəyini daha etibarlı və inamlı görmək əzmindən xəbər verir. Son illərdə ölkəmizdə, eləcə də rayonumuzda heç bir dövrdə olmadığı qədər yeni məktəblər tikilib, təmir olunub, əlavə tədris korpusları inşa olunub.



Tədbirdə digər çıxış edənlər də müəllimləri peşə bayramı münasibətilə təbrik ediblər.

Sonda ulu öndərin Azərbaycan müəllimlərinin XI qurultayındakı çıxışından fraqmentlər nümayiş etdirilib.

**“Qəbələ”**

## Valideynlərlə görüş keçirilib



Qəbələ Dövlət Peşə Təhsil Mərkəzlərində üzüm və şərab ustası, mehmanxana inzibatçısı, iaşə xidmətləri, turizm təşkilatçısı, aqroservis mütəxəssisi ixtisaslarına yeni qəbul olunan tələbələr və onların valideynləri ilə görüş keçirilib.

Görüşdə valideynlərə “Qəbələ rayonunda kənd təsərrüfatı və turizm sahələrində duala bənzər peşə təhsili və təlimi pilotlarının yaradılması” layihəsi çərçivəsində tətbiq edilən təcrübənin təşkili prosesi və müddəti barədə məlumat verilib, duala bənzər peşə təhsili və təlimi yanaşmasının ənənəvi yanaşma ilə müqayisədə üstünlükləri diqqətə çatdırılıb.

Tədbirin sonunda valideynləri təcrübə prosesi ilə əyani tanış etmək məqsədilə “Aspi Agro” MMC, “Aqroservis” MMC, “Qafqaz Tufandağ” və “Qafqaz Resort” otellərinə tanışlıq turu təşkil olunub.

**“Qəbələ”**

## Təlim təşkil edilib

Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində peşə məktəblərinin müəllim və mühəndis-pedaqoji heyətinin, eləcə də şirkətdaxili təlimçilərin səriştələrinin artırılması məqsədilə xarici ekspert tərəfindən təlim keçirilib. Təlim sentyabrın 30-dan oktyabrın 4-dək davam edib.

“Qəbələ, Qax və İsmayıllı rayonlarında kənd təsərrüfatı və turizm sahələrində duala bənzər peşə təhsili və təlimi pilotlarının yaradılması” layihəsi çərçivəsində “Kartof əkininin xüsusi istehsal texnikası” mövzusunda keçirilən təlim nəzəri və praktiki hissədən ibarət olub.

Son 2 gündə təlim iştirakçıları öyrəndiklərinə əsaslanaraq təqdimat hazırlayıblar. Təqdimatlar ekspert tərəfindən yüksək qiymətləndirilib. Qeyd olunub ki, təlimin bu formada təşkili və qiymətləndirilməsi mühəndis-pedaqoji heyətə və şirkətdaxili təlimçilərə öyrəndiklərini praktiki olaraq tətbiq etməyə və nəticələrinin davamlılığına nail olmağa imkan yaradır.

**“Qəbələ”**

## Müəllimlər gələcəyə mayakdır

Azərbaycan xalqı müəllim adına, bu peşənin sahibi olan şəxslərə daim hörmət bəsləmişdir. Ulu öndər Heydər Əliyev də müəllim adına böyük hörmət bəsləmiş, ”Mən dünyada müəllim adından yüksək bir ad tanımıram“ demişdir.

Rayon tarix -diyarşünaslıq muzeyində 5 oktyabr Beynəlxalq Müəllimlər Günü ilə əlaqədar “Müəllimlər gələcəyə mayakdır” adlı tədbir keçirilmişdir. Tədbiri giriş sözü ilə muzeyin direktoru Həqiqət Rüstəmli açaraq müəllimləri peşə bayramları münasibətilə təbrik etmişdir.

Tədbirdə muzeyin əməkdaşlarından Çimnaz Müzəffərova, Tahirə Şəfiyeva və Rəfiqə Kərimova çıxış edərək təhsilə, təhsil işçilərinə göstərilən dövlət qayğısından danışmışlar.

Daha sonra Qəbələ şəhər 4 və 5 nömrəli tam orta məktəblərin şagirdləri Ayişə Məmmədova, Fateh Bağırov, Fərid, Ramin Məmmədovlar, Gülay Abdullayeva və başqaları müəllimlərə həsr olunmuş şeirlər söyləmişlər.

Sonda muzeyin keçirdiyi tıdbirlərdə fəallıqları ilə fərqlənən şagirdlərə muzeyin bukletləri paylanmışdır.

**İlhamə SEYİDOVA,**
**muzeyin əməkdaşı.**